**BİZİM ŞÜAR:**

**“NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!”**

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. Çar Rusiyası dağıldıqdan sonra, **1918-ci ildə** Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## Azərbaycan ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır



ABŞ-ın “Global Firepower” araşdırma mərkəzi dünyanın ən güclü ordularının siyahısını tərtib edib. Siyahıda Azərbaycan ordusu da yer alır. AzərTAc “Global Firepower”in saytına istinadla xəbər verir ki, 106 ölkənin yer aldığı reytinq siyahısında Azərbaycan ordusu 50-ci yerdədir. Siyahı hazırlanarkən orduların quruda, havada və dənizdə adi silahlardan istifadə imkanları, həmçinin ölkənin malik olduğu iqtisadi resurslar və coğrafi vəziyyət əsas götürülüb. Ümumilikdə, 50 amil əsasında tərtib olunan siyahıya Amerika Birləşmiş Ştatlarının ordusu başçılıq edir. İkinci yerdə Rusiya, üçüncü yerdə Çin ordusudur. **Azərbaycan Rumıniya, Belarus, Gürcüstan, Qazaxıstan, Portuqaliya, Macarıstan, Kolumbiya, Yunanıstan kimi ölkələri geridə qoyub.** Ermənistanın adı isə ümumiyyətlə siyahıya düşməyib.

## Bakı dünyanın ən görməli 52 şəhərindən biri seçilib





Bakı ABŞ-ın “The New York Times” qəzetinin hazırladığı 2015-ci il üzrə dünyanın ən görməli 52 məkanı siyahısına daxil edilib. Siyahıya dünyanın müxtəlif mədəniyyətlərini təmsil edən Kuba, Makedoniya, Zimbabve, Florida, Milan və s. kimi ölkə və şəhərlər daxildir. Siyahıdakı bütün məkanlar haqqında məlumat verilən məqalədə Bakı haqqında bunlar yazılır: ***“Qədim mədəniyyət və Dubay tərzindəki ekstravaqantlığı Bakını turistlərin getmək istədikləri məkanlardan birinə çevirir. Azərbaycanın paytaxtında baş verən ikinci neft bumu Xəzər dənizinin sahilində yerləşən bu şəhərə var-dövlət qazandırmış və yeni üfüqlər açmışdır.***

***Hökumət neftdən əldə olunan gəliri UNESCO-nun Dünya Mədəni İrsi siyahısına salınmış İçərişəhəri dövrəyə alan zəngin memarlıq layihələrinə yönəldir. Şəhərin ən gözəl binalarına misal olaraq Alov qüllələrini və Zaha Hadidin memarlığı ilə tikilən Heydər Əliyev Mərkəzini göstərmək olar. Şəhərdə “Four Seasons”, “Hilton” və “Kempinski” kimi beynəlxalq nüfuza malik otellər fəaliyyət göstərir. Bu yay Bakıda keçiriləcək I Avropa Oyunları ərəfəsində tikilmiş 33 mərtəbəli “Trump İnternational” oteli və Bakı qülləsi də bu möhtəşəm tikililər siyahısına əlavə olunacaqdır”.***

## SU ÇİÇƏYİ XƏSTƏLİYİNİN EPİDEMİOLOGİYASI VƏ PROFİLAKTİKASI

Su çiçəyi - hava-damcı yolu ilə yayılan, ləkəli-suluqlu səpkilərlə özünü göstərən kəskin virus infeksiyasıdır.

İnfeksiya mənbəyi xəstə insandır. Su çiçəyi ilə xəstələr inkubasiya (gizli) dövrünün axırıncı günündən başlayaraq (səpkilər meydana çıxmazdan əvvəlki 20-24 saat), səpkilər (axırıncı səpki elementləri) meydana çıxdıqdan sonra 5 gün müddətində yoluxdurucu olurlar. Yoluxma yolu hava-damcı yoludur. Öskürmə, asqırma və danışıq zamanı külli miqdarda xaric olan viruslar hava cərəyanı ilə uzaq məsafələrə asanlıqla yayılır və qonşu otaqlara, mərtəbələrə keçə bilirlər.

Hamiləlik zamanı su çiçəyi ilə xəstələnmiş analardan vertikal yolla (törədicinin anadan dölə ötürülməsi) dölün yoluxması da mümkündür. Bu zaman doğulan körpələrdə anadangəlmə su çiçəyi sindromu deyilən patoloji pozğunluqlar (psixi pozğunluqlar, görmə üzvünün anomaliyaları) müşahidə edilə bilər.

Su çiçəyinə həssaslıq xəstəliyi keçirməmiş bütün yaş qruplarında eyni dərəcədədir-yüksəkdir. Yaşlılar nadir hallarda xəstələnirlər. Bu onlarda uşaq yaşlarında immunitetin formalaşması ilə izah edilə bilər. Xəstəlik keçirmiş insanlarda ömür boyu xəstələnmədən qoruyan immunitet yaranır. Təkrar xəstələnmə demək olar ki, olmur. Xəstəliyin yayılmasında mövsümlük mövcuddur. Əsasən payız-qış aylarında təsadüf edilir.

Xəstəliyin inkubasiya (gizli) dövri 10-21 gün, orta hesabla 13-17 gündür. Xəstəlik yüksək temperaturla başlayır, eyni zamanda bədənin müxtəlif hissələrində və ağız boşluğunun selikli qişasında qırmızı səpkilər əmələ gəlir. Tez bir vaxtda bu səpkilər içində şəffaf maye olan sudurcuqlara çevrilir. Bir neçə gündən sonra sudurcuqlar quruyaraq nazik qabıq əmələ gətirir.

Su çiçəyinin gedişi əksər halda yüngül olur. Nadir hallarda müşahidə edilən ağırlaşmalar (ensefalit, meninqoensefalit və digər) olarsa, proqnoz ciddi hesab edilir.

Profilaktikası - xəstələr erkən aşkar edilməli, xəstələr axırıncı səpki elementləri meydana çıxdıqdan sonra 5 gün keçənədək ətrafdakılardan təcrid edilməlidir. Əvvəllər su çiçəyi ilə xəstələnməmiş şəxslər xəstələrlə təmasda olarsa, onlar təmasda olduqları gündən başlayaraq 21 gün müddətində tibbi müşahidəyə götürülməlidirlər.

Su çiçəyinin profilaktikasında əsas spesifik tədbir bu xəstəlik əleyhinə peyvəndin aparılmasıdır.

**DQBİ-nin Sanitar-epidemiologiya dəstəsinin rəisi-baş sanitar həkim t/x polkovnik-leytenantı Alışan Musayev**

## MSN YENİ REAKTİV ATƏŞ SİSTEMİNİN SINAQLARINI YEKUNLAŞDIRIB

***Sistemin bütün hesablamaları azərbaycanlı mütəxəssislər tərəfindən hazırlanmış proqram təminatı hesabına yerinə yetirilir***



Müdafiə Sənayesi Nazirliyinin (MSN) Milli Aerokosmik Agentliyi (MAKA) tərəfindən hazırlanmış 107 millimetr çaplı reaktiv yaylım atəş sisteminin sınaqları başa çatdırılıb.

Bu barədə “AzeriDefence” hərbi internet səhifəsinə MAKA-dan məlumat verilib.

“Ford XLT” pikap avtomobilinin şassisi üzərində qurulan yeni atəş sistemi sınaqlarda yüksək nəticələr göstərib. Artıq sistem seriyalı istehsala hazırdır.

Sistemin idarəetməsi və bütün hesablamaları yerli mütəxəssislər tərəfindən hazırlanmış proqram təminatı hesabına yerinə yetirilir. Yüksək keçicilik qabiliyyətinə malik maşının kabinəsi zirehləndirilib və bu da heyət üzvlərinin bir sıra maneələrdən - qəlpə partlayışlarından və güllələrdən mühafizəsini təmin edir. Maşının üzərində hərəsi 12 ədəd 107 millimetr reaktiv mərmi yerləşən iki paket buraxılış konteyneri mövcuddur.

Qeyd edək ki, sözügedən reaktiv yaylım atəş sistemi ilk dəfə sentyabr ayında Bakıda keçirilmiş “ADEX-2014” beynəlxalq silah sərgisində nümayiş etdirilib.

VƏTƏNİM AZƏRBAYCAN

## “HACI MAHMUD ƏFƏNDİ” TÜRBƏSİ




Vətənimiz Azərbaycan mədəniyyət abidələri ilə zəngin diyardır. Bu abidələr qədimliyi ilə yanaşı, maraqlı tarixi ilə də diqqəti cəlb edir. Həmin abidələrdən biri də Qazax rayonunun Aslanbəyli kəndində yerləşən “Hacı Mahmud Əfəndi” türbəsidir. Türbənin əsası 1892-ci ildə Borçalıda yaşayan azərbaycanlılar tərəfindən qoyulub. Türbə o dövrün tanınmış din xadimlərindən olan Hacı Mahmud Əfəndinin adını daşıyır. O, 1835-1896-cı illərdə yaşayıb və dini təhsilini Türkiyədə alıb. Bəzi rəvayətlərə görə, Hacı Mahmud Əfəndi ustadı Mirhəmzə Seyid Niğari Qarabağiyə sonsuz sevgi və ehtiram əlaməti olaraq Türkiyənin Amasya şəhərində böyük bir türbə də tikdirib.

“Hacı Mahmud Əfəndi” türbəsi bu gün respublikamızın həm də ən gözəl memarlıq nümunələrindən biri hesab olunur. Abidə günbəzlə örtülmüş, üz qatı memarlıq dekorları, ornament və kitabələrlə bəzədilmişdir. Türbəyə xüsusi gözəllik vermək üçün çatma tağlar inşa edilmişdir. Hacı Mahmud Əfəndi türbəsi (iç sahəsi 4x4 metr) dördbucaqlı formaya malikdir. Hündürlüyü 6 metrdir. Divarları iç tərəfdən qum-sement məhlulu ilə suvanmış və yaşıl rənglə işlənmişdir. Bayır tərəfdən isə daş plitələrlə üzlənmişdir. Türbənin bir giriş qapısı və iki pəncərəsi var. İçərisində iki qəbir yerləşir. Giriş qapısından içəridə - sol tərəfdə Hacı Mahmud Əfəndinin, sağ tərəfdə isə Seyid Yasin Əfəndinin qəbridir. Baş daşlarında farsca yazılar həkk olunub. Tikintinin ətrafı da qəbiristanlıqdır. Yaxın qalanın üzərində 1909-cu ildə Həmid Əfəndinin təşəbbüsü ilə tikilmiş məscid və Hacı Mahmudun evi ucalıb. Qeyd etmək lazımdır ki, Seyid Yasin Əfəndi Mahmud Əfəndinin dostu olub.

Abidənin inşa tarixi isə divarlarına ərəb əlifbası ilə həkk edilmiş yazılardan aydın olur. Giriş qapısından bir qədər yuxarıda həkk edilmiş “Binai-tərbeye-tarix arar təbi bulur qəvvas, Dedi kim bu ğəriq oldu səfa Allah səfadır bu. 1318” beytindən məlum olur ki, hicri-qəməri təqvim ilə 1318-ci il miladi tarixlə 1892-ci ilə düşür. Bu sahədə araşdırma aparan bir çox tədqiqatçılar da türbənin məhz 1892-ci ildə tikilməsini daha düzgün sayırlar. 1987-ci ildə burada təmir işləri aparılsa da, türbənin xarici görünüşü əsasən olduğu kimi qorunub saxlanılıb.



**Hazırladı: baş çavuş A.Yusifov**

### Allah rəhmət eləsin

67987 saylı hərbi hissənin şəxsi heyəti mayor Eldar Bağırova **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ali Hərbi Məktəbin şəxsi heyəti kapitan Samir Hüseynova **dayısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin şəxsi heyəti baş leytenant Elşad Qasımova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:* Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: mayor R.Sarıyev

REDAKSİYANIN ÜNVANI: AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
İlham ƏLİYEV

ƏSGƏR

№ 02 (444)
31 yanvar 2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# 2014-cü İL DƏ UĞURLU NƏTİCƏLƏRLƏ YADDA QALDI

### 2015-ci il Azərbaycanda “Kənd təsərrüfatı ili” elan edilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də 2015-ci ilin ölkədə “Kənd təsərrüfatı ili” elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradıldığı bildirilir. Qeyd edilir ki, aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, normativ hüquqi baza təkmilləşdirilmişdir. İdarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməkdədir. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulmuş, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilmişdir. Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən etmişdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, vergilərdən azad edilmişlər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar verir. Sərəncama əsasən, kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək məqsədi ilə 2015-ci il Azərbaycan Respublikasında “Kənd təsərrüfatı ili” elan edilib. Kənd Təsərrüfatı Nazirliyinə Nazirlər Kabineti ilə birlikdə 2015-ci ilin “Kənd təsərrüfatı ili” elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək tapşırılıb.

**AzərTAc**

***Güclü, sabit və müasir Azərbaycan, Respublika Prezidenti cənab İlham Əliyevin Vətən, xalq qarşısındakı böyük və əzəmətli fəaliyyətinin gerçək nəticəsidir***

Əvvəlki illərdə olduğu kimi, bu il də sosial-iqtisadi həyatda nəzərə çarpan müsbət irəliləyişlər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş düzgün siyasi kursunun məntiqi nəticəsi kimi ölkəmizin tərəqqisi, əhalinin rifah halının daha da yaxşılaşması, Azərbaycanın beynəlxalq nüfuzunun əhəmiyyətli dərəcədə yüksəlməsi, milli və dövlətçilik maraqlarının təmin olunması kimi mühüm hadisələrlə yadda qaldı.

2014-cü ildə, əsasən, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun daha da gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətləri kimi diqqət mərkəzində saxlanılıb. Respublikada sosialyönümlü siyasətin həyata keçirilməsi, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər reallaşdırılıb. Bütün bunlarla yanaşı, enerji strategiyasının yeni konturları müəyyənləşdirilib, regionun, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin rolu gücləndirilib.

2014-cü ildə Azərbaycanın dövlət büdcəsi təxminən 25 milyard dollar səviyyəsində olub və Cənubi Qafqazın ümumi büdcəsinin 76 faizini təşkil edib. Bu ilin 10 ayı ərzində ümumi daxili məhsul (ÜDM) istehsalı 2,8 faiz, qeyri-neft sektoru isə 6,6 faiz artıb. Ölkəmizin valyuta ehtiyatları 53 milyard dollar səviyyəsinədək yüksəlib. Hazırda Azərbaycanın xarici borclarının ÜDM-ə nisbəti cəmi 8,5 faiz səviyyəsindədir ki, bu da dünyada ən yaxşı göstəricilərdən biri hesab edilir.

Cari ilin ötən dövrü ərzində işsizliyin səviyyəsi 5,2 faizə, yoxsulluq isə 5 faizə düşüb. Bu göstəricilərə görə Azərbaycan dünyanın bir çox inkişaf etmiş ölkələrini geridə qoyub.

Azərbaycanda sənayeyə yeni yanaşmalar uğurla tətbiq edilib, sənaye potensialı daha da gücləndirilib, bu sahədə rəqabət qabiliyyətinin artırılması, kadr potensialının inkişaf etdirilməsi, müvafiq normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı işlər həyata keçirilib, 200-dək, o cümlədən 40-dan çox orta və iri sənaye müəssisəsi açılıb. Bunun nəticəsində cari ildə sənaye istehsalı 2,7 dəfə, qeyri-neft sənayesi isə 1,9 dəfə artıb. Ölkədə 2 milyon iş yeri açılıb.



Bu il Azərbaycanda sahibkarlığın inkişafı da diqqət mərkəzində saxlanılıb. Bunun nəticəsində ölkədə sahibkarlıq subyektlərinin sayı 2,7 dəfə artıb. Məşğulluqda özəl sektorun payı 74 faizə, vergi daxilolmalarında isə 72,4 faizə yüksəlib. Ümumi daxili məhsulda özəl sektorun xüsusi çəkisi 82,5 faizə çatıb.

2014-cü il “Sənaye ili”ndə 27 yeni sənaye müəssisəsinin yaradılması yönümlü investisiya layihəsinin maliyyələşdirilməsinə 69,2 milyon manat güzəştli kredit verilib. Beləliklə, görülən işlər nəticəsində Azərbaycanda güclü özəl sektor formalaşıb, müasir texnologiyalara əsaslanan minlərlə müəssisə açılıb, sahibkarlar xarici ölkələrdə uğurla fəaliyyət göstərməyə başlayıb.

Bu il ölkədə nəhəng infrastruktur layihələri də davam etdirilib, bir çox mühüm layihələr isə başa çatdırılıb. Heydər Əliyev adına Beynəlxalq Hava Limanının yeni aerovağzal kompleksi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin bərə terminalı, “Arpaçay-1” və ”Arpaçay-2” su elektrik stansiyaları, Taxtakörpü və Şəmkirçay su anbarları və digər bu kimi böyük obyektləri xüsusi qeyd etmək olar. Həmçinin hazırda Böyükşor gölünün və ətraf ərazilərin ekoloji vəziyyətinin kompleks bərpası, “Ağ şəhər” və s. nəhəng layihələrin icrası davam etdirilir. 2013-cü ilin sentyabrında istifadəyə verilən Gəmiqayırma zavodu, gələn il başa çatdırılması nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmir yolu və Beynəlxalq Dəniz Ticarət Limanı Asiya ilə Avropa arasında yükdaşıma sahəsində Azərbaycanın tranzit imkanlarını tam şəkildə gerçəkləşdirməyə imkan yaradacaq.

Regionlarda 82 mini daimi olmaqla 100 mindən artıq yeni iş yeri yaradılıb. Ümumilikdə, son 10 ildə açılan iş yerlərinin sayı 1,3 milyona çatıb.

2014-cü ildə Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sənayesi uğurla inkişaf edib. Dekabrın əvvəlində “Bakutel-2014” telekommunikasiya və informasiya texnologiyaları sərgisi çərçivəsində ”Azersky” müşahidə peyki “Azərkosmos” ASC-yə təhvil verilib. Bu, artıq Azərbaycanın orbitə çıxarılmış ikinci peykidir. Xatırladaq ki, “Azersky” peykinin müdafiə, təhlükəsizlik, fövqəladə hallar, təbii ehtiyatların tədqiqi və digər geniş tətbiq sahələri var.

Ötən il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin 20 illik yubileyində müxtəlif dövlət və hökumət başçılarının, rəsmi şəxslərin və nüfuzlu şirkət rəhbərlərinin iştirakı ilə digər nəhəng transmilli layihənin - “Cənub” qaz dəhlizinin təməlqoyma mərasimi keçirilib. “XXI əsrin layihəsi” adlandırılan “Şahdəniz-2” və ”Cənub” qaz dəhlizi layihələri Azərbaycanın neft strategiyasına yeni nəfəs verməklə yanaşı, həm də dünyanın enerji xəritəsini dəyişdirəcək və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında yeni bir vəziyyətin yaranmasına səbəb olacaq.

Bu il qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilib. Ağdam rayonu ərazisində 632 ailəlik, Hacıqabulda 101 ailəlik, həmçinin Gəncədə və Beyləqanda yeni və müasir qəsəbələrin məskunlaşdırılması prosesi yekunlaşıb. Ümumiyyətlə, 2001-2014-cü illər ərzində bütün sosial-texniki infrastruktura malik 89 müasir qəsəbə salınıb, 220 min qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Beynəlxalq iqtisadi və maliyyə institutlarının bu il açıqladıqları rəy və proqnozlar da Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri ilə bir sırada dayanmasından xəbər verir. Dünya İqtisadi Forumunun qlobal rəqabətlik indeksində Azərbaycan 144 ölkə arasında 38-ci yerə yüksəlib və ardıcıl olaraq 5 ildir ki, MDB ölkələri arasında birinciliyi əldə saxlayır.

Əgər əvvəlki illərdə ÜDM-də qeyri-neft sektorunun xüsusi çəkisi 37 faiz təşkil edirdisə, bu gün artıq bu sektorun payı 59 faizə çatıb və iqtisadiyyatın strukturundakı bu müsbət dinamika davam edir, sənaye, kənd təsərrüfatı, informasiya-kommunikasiya texnologiyaları, turizm və digər sahələr inkişaf edir.

Güclü, sabit və müasir Azərbaycan, Respublika Prezidenti cənab İlham Əliyevin Vətən və xalq qarşısındakı böyük və əzəmətli fəaliyyətinin gerçək nəticəsidir. Həqiqətən, ölkə başçımızın geosiyasi və geoiqtisadi təşəbbüsləri sayəsində bu gün Azərbaycan regionun ən qüdrətli lider dövlətinə çevrilib. Bu regionda heç bir siyasi, iqtisadi, nəqliyyat məsələsi Azərbaycanın iştirakı və razılığı olmadan həll edilə bilməz.

## DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Yanvarın 15-də Daxili İşlər Nazirliyində Daxili Qoşunların 2014-cü ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş naziryanı əməliyyat müşavirəsi keçirilib.**

Müşavirəni giriş sözü ilə açan Daxili İşlər Naziri general-polkovnik Ramil Usubov Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin 2014-cü ildə əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatın, iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Nazir Daxili Qoşunların ölkəmizdə müstəqilliyin və daxili sabitliyin qorunmasında xüsusi xidmətləri olduğunu diqqətə çatdıraraq şəxsi heyətin ictimai asayişin qorunmasında və ictimai təhlükəsizliyin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə, xüsusi əməliyyatların keçirilməsində fəal iştirakını, yüksək peşəkarlığa, döyüş və mənəvi-psixoloji hazırlığa malik bir quruma çevrildiyini məmnunluqla bildirib.

Qeyd olunub ki, görülmüş işlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən layiqincə qiymətləndirilir. Bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərlərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini, heç bir halda arxayınlaşmamağı tələb edir.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Daxili Qoşunların Komandanı ötən il normativ-hüquqi bazanın təkmilləşdirilməsinin, təlimlərin real döyüş şəraitinə uyğunlaşdırılmasının, maddi-tədris bazasının inkişaf etdirilməsinin, şəxsi heyətin nəzəri biliklərinin artırılmasının, onlara yüksək peşəkar praktiki vərdişlərin aşılanmasının, mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsinin yüksəldilməsinin döyüş təliminin əsas vəzifələri olaraq həyata keçirildiyini diqqətə çatdırıb.

O da qeyd olunub ki, qanunçuluğun, hərbi intizamın möhkəmləndirilməsi, hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarına uyğun riayət olunması sahəsində həyata keçirilən ardıcıl tədbirlərin nəticəsi olaraq qrup halında nizamnamədənkənar münasibətə yol verilməyib, 2013-cü illə müqayisədə ötən il Daxili Qoşunların şəxsi heyəti tərəfindən törədilən cinayətlərin sayı 43 faiz, ölüm halları 36 faiz, kobud intizam pozuntuları 30 faiz, xırda hüquqazidd hadisələr 30 faiz, bədən xəsarətlərinin sayı 23 faiz azalıb.



Ötən il şəxsi heyətin kazarma-məişət şəraitinin yaxşılaşdırılması və müasir standartlara uyğunlaşdırılması, hərbi hissə və bölmələrin silah və xüsusi texnika ilə təchizatı istiqamətində nəzərdə tutulan işlər uğurla icra edilib.

Müşavirəyə yekun vuran Daxili İşlər Naziri ötən hesabat ilində şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yekunlarını yüksək qiymətləndirib, qarşıda duran vəzifələrdən danışıb, onların həlli yollarını göstərib, konkret tapşırıq və tövsiyələrini verib.

O deyib ki, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi, o cümlədən şəxsi heyətin Vətənə və hərbi anda sədaqət, hərbi nizamnamələrin tələblərinə sözsüz əməl edilməsi ruhunda tərbiyə olunması istiqamətində zəruri tədbirlər davam etdirilməlidir.

Nazir bu il baş tutacaq I Avropa Oyunları və parlament seçkiləri ilə əlaqədar Daxili Qoşunlarda bütün təşkilati tədbirlərin müəyyən edilmiş vaxtda keçirilməsinin, bu zaman qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının layiqincə yerinə yetirilməsinin əhəmiyyətini vurğulayıb.

General-polkovnik Ramil Usubov hərbi hissələrdə idarəçilik fəaliyyətinin, döyüş xidmətinin təşkili və aparılmasının, hərbi qulluqçuların Vətənə, dövlətə və dövlətçiliyə sədaqət ruhunda tərbiyə edilmələrinin, fiziki və döyüş hazırlığının daha da yüksəldilməsinin, ekstremal hallar da daxil olmaqla, onların polis əməkdaşları ilə bərabər istənilən əmr və göstərişlərin ən yüksək səviyyədə icrasına hər zaman hazır olmalarının zəruriliyini qeyd edib.

Nazir Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı zati-aliləri cənab İlham Əliyevi əmin edib ki, ölkəmizdə daxili sabitliyi, əmin-amanlığı pozmaq istəyən qüvvələrin qarşısı qətiyyətlə alınacaq, Daxili Qoşunların hərbi qulluqçuları qanunvericiliklə müəyyən edilmiş vəzifələrin və verilən tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, xalqa, dövlətə və Prezidentə sədaqətlə xidmət edəcəklər.

# "DAXİLİ QOŞUNLARIN ALİ HƏRBİ MƏKTƏBİNİN KURSANTI ADINI DAŞIMAQ BÖYÜK ŞƏRƏFDİR"

***Bu fikri general-mayor Şahin Məmmədov Ali Hərbi Məktəbin zabit-müəllim heyəti və kursantları ilə görüşündə səsləndirib.***

Yanvarın 23-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov qoşunların Ali Hərbi Məktəbində kursantlarla görüşüb.



Əvvəlcə o, Ali Hərbi Məktəbdə kursantların təlim-tədrisi üçün yaradılmış şəraitlə maraqlanıb və məktəbin perspektiv inkişaf planı ilə bağlı tapşırıqlar verib. Daxili Qoşunların Komandanına məruzə edilib ki, təlim-tədris prosesinin keyfiyyətlə keçirilməsi üçün sinif otaqları, o cümlədən təlim yerləri bütün zəruri avadanlıqlarla təchiz edilib.

Sonra Daxili Qoşunların Komandanı zabit-müəllim heyəti və kursantlar qarşısında çıxış edərək onlara tələb və tövsiyələrini çatdırıb.

Daxili Qoşunların Ali Hərbi Məktəbinin kursantı adını daşımağın böyük şərəf olduğunu diqqətə çatdıran general-mayor Ş.Məmmədov xüsusi olaraq qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə yaradılmış, hərtərəfli şəraitə malik bu hərbi təhsil ocağında bundan sonra da quruculuq-abadlıq işləri davam etdiriləcək, gələcəyin əsl hərbçi kadrlarının hazırlanması üçün zəruri tədbirlər həyata keçiriləcək. Əlavə edilib ki, Daxili İşlər Naziri general-polkovnik Ramil Usubovun göstərişinə əsasən, təlim-tədrisin effektivliyinin artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə perspektivdə mühüm əhəmiyyət kəsb edən obyektlərin tikintisi davam etdiriləcək.

Çıxış zamanı o da vurğulanıb ki, Daxili Qoşunların kursantı birmənalı olaraq nizam-intizamlı, vətənpərvər olmalı, hərbi biliklərə dərindən yiyələnməli, müəllim kollektivinin, komandir heyətinin tələb və tapşırıqlarına qeyd-şərtsiz əməl etməlidir.



Daxili Qoşunların Komandanı çıxışını bu fikirlərlə yekunlaşdırıb: "İnanıram ki, dövlətçiliyimizə sadiq, təmiz əqidəli, sağlam düşüncəli, hərbi sənətin vurğunu olan Daxili Qoşunların kursantları gələcək xidmətlərində böyük uğurlar əldə edəcəklər".

Görüşün sonunda kursantları maraqlandıran suallar ətraflı şəkildə cavablandırılıb.

**Mətbuat xidməti**

# "20 YANVAR ŞƏHİDLƏRİ"NİN XATİRƏSİ ANILIB

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə təsdiq olunmuş "20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı"na əsasən, Azərbaycanın dövlət və hökumət rəsmiləri, o cümlədən Daxili Qoşunların Komandanlığı və zabit heyəti Şəhidlər Xiayabanını ziyarət edib. Şəxsi heyət ölkəmizin suverenliyi, xalqımızın azadlığı uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucalmış mərd Vətən övladlarının məzarları önünə gül dəstələri qoyub. Hərbi qulluqçularımız Daxili Qoşunların Qarabağ savaşında şəhid olmuş silahdaşlarımızın xatirəsinə ucaldılmış "Qardaşlıq Məzarı" üzərinə və "Türk Şəhidliyi" Kompleksi önünə də tər qərənfillər düzüblər.

Saat 12.00-da isə Daxili Qoşunların Baş İdarəsində şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xatırladaq ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Sovet ordusu, erməni quldur dəstələri ilə birgə Bakıya daxil olaraq dinc əhaliyə qarşı terror aktı həyata keçirib. Bakıda və respublikanın rayonlarında 137 nəfər şəhid olub, 744 nəfər yaralanıb, 841 nəfər qanunsuz olaraq həbs edilib.

Yalnız Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan Respublikası Milli Məclisinin 29 mart 1994-cü il tarixli iclasında 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr müzakirə edilib və ona siyasi-hüquqi qiymət verilib.

Qərarda göstərilir ki, Azərbaycanda baş qaldıran milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də sovet silahlı qüvvələrinin Bakı şəhərinə yeridilməsi, nəticədə dinc insanların qəddarcasına qətlə yetirilməsi Azərbaycan xalqına qarşı totalitar kommunist rejiminin hərbi təcavüzü və cinayəti kimi qiymətləndirilmişdir.

# BAŞ İDARƏDƏ QƏBUL

Yanvarın 16-da Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Pakistan İslam Respublikasının Azərbaycan Respublikasındakı Hərbi Attaşesi polkovnik Səid İmran Əlini qəbul edib.



General-mayor Ş.Məmmədov Pakistan İslam Respublikası ilə Azərbaycan Respublikası arasında səmimi dostluq və əməkdaşlıq münasibətlərinin mövcud olduğunu vurğulayıb. O, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Pakistan İslam Respublikasının müvafiq qurumları arasında əlaqələrin qurulmasının iki dost ölkənin əməkdaşlıq münasibətlərinin inkişaf etməsinə böyük töhfələr verdiyini deyib.

Polkovnik Səid İmran Əli isə öz növbəsində səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirərək, görüşdən məmnunluğunu ifadə edib.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri müzakirə olunub. Qeyd olunub ki, dövlətlərimizin mənafeyinə cavab verən tərəfdaşlıq xətti bundan sonra da uğurla davam etdiriləcək.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

**Mətbuat xidməti**

# YENİ HEYƏT FƏALİYYƏTƏ BAŞLADI

Türkiyə Respublikasının Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan daha bir heyətinin fəaliyyət müddəti başa çatıb. Yanvarın 16-da Daxili Qoşunların Baş İdarəsində Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov ezamiyyət müddəti başa çatan və yeni xidmətə başlayan müəllim heyətini qəbul edib. Daxili Qoşunların Komandanı Türkiyə Jandarm Baş Komandanlığı ilə Daxili Qoşunlar arasında hərbi əməkdaşlıq münasibətlərinin bu gün uğurla davam etdiyini vurğulayıb. Türkiyə Jandarm Baş Komandanlığının hərbi qulluqçularının əməyini yüksək qiymətləndirən general-mayor Ş.Məmmədov onlara ezamiyyət müddətində təlim-tədrisin təkmilləşdirilməsi istiqamətində səmərəli fəaliyyətlərinə görə minnətdarlığını bildirib.

Cənab Komandan xidmətə yeni başlayacaq türkiyəli hərbi qulluqçulara da (polkovnik-leytenant Erdinç Serap, polkovnik-leytenant Ramazan Gürler, polkovnik-leytenant Hacı Mete Özbək, polkovnik-leytenant Erol Egeboy, mayor Murat Cebenay, mayor Murat Erdoğan, gizir Erkan Şener və gizir Taner Taşkıran) fəaliyyətlərində uğurlar arzulayıb.

Türkiyəli müəllim heyəti onlara göstərilən diqqətə görə Daxili Qoşunların Komandanına öz dərin minnətdarlığını ifadə edib.

Görüşün sonunda cənab Komandan xidmətini başa vurmuş heyət üzvlərini "Fərman"la mükafatlandıraraq, onlarla xatirə şəkli çəkdirib.

**gizir N.Rzayeva**

# PARKİNQLƏ BAĞLI XƏBƏRDARLIQ

Bakıda keçiriləcək I Avropa Oyunları ilə əlaqədar nəqliyyatın sıxlığının aradan qaldırılması və nəqliyyat vasitələrinin düzgün idarə olunması üçün bir sıra tədbirlər həyata keçiriləcək.

Nəqliyyat Nazirliyindən verilən məlumata görə, bu tədbirlərdən biri də oyunlar keçirilən ərazidə yerləşən parkinqlərlə bağlı olacaq. I Avropa Oyunları zamanı həmin ərazidə yaşayan həyətlərdə kənar şəxslərin avtomobillərini parkinq etmələrinə icazə verilməyəcək. Bunun üçün hətta sakinlərə xüsusi kartlar da paylanılacaq. Bu prosesə tam ciddi nəzarət olacaq. Yəni kənar avtomobillərin müəyyən edilmiş ərazilərə daxil olması, park edilməsi qadağan olunacaq. Vətəndaşlardan bu və ya digər məsələlərə diqqətlə yanaşmaq xahiş olunur.

# HƏRBİ HİSSƏNİN QABAQCIL TAQIMI

***Daxili Qoşunların 67987 saylı hərbi hissəsi hər zaman nümunəvi hərbi qulluqçuları, "əlaçı taqım" və "əlaçı manqa"ları ilə fərqlənib, bir çox sahələrdə əldə etdiyi nailiyyətlərlə öncüllər sırasına yüksəlib. Daxili Qoşunların hərbi hissələri üzrə 2014-cü ilin yekun nəticələri bu deyilənləri bir daha təsdiq edir.***

Hərbi hissənin seçilən "əlaçı taqım"larından biri də leytenant Pərviz Rəcəbovun komandiri olduğu taqımdır. O, 2010-cu ildən Daxili Qoşunların sıralarındadır. Bu vaxta kimi müxtəlif vəzifələrdə xidmət edib. Çalışqanlığı, cəsarəti ilə qısa zaman ərzində hərbi hissə komandanlığının dərin ehtiramını qazanıb və taqım komandiri vəzifəsinə qədər yüksəlib. Hissə komandanlığı leytenant P.Rəcəbovu öz üzərində daim işləyən, bacarıqlı, işgüzar hərbi qulluqçu kimi xarakterizə edir. Onun komandiri olduğu taqım da özü kimi, istər döyüş hazırlığına, istərsə də nizam-intizamına görə hərbi hissənin öncüllərindəndir. 2013-2014-cü ilin yekun yoxlamalarını əla qiymətlərlə başa vuran taqım Daxili Qoşunların hərbi hissələri arasında "əlaçı taqım" adına layiq görülüb. Bu nəticələrin əldə olunmasında təbii ki, bir komandir kimi leytenant P.Rəcəbovun əməyi danılmazdır. Çünki o, həm özünə, həm də komandiri olduğu taqımın şəxsi heyətinə qarşı olduqca tələbkardır. Taqımın döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsinə bilavasitə cavabdehdir və bunun üçün əlindən gələni əsirgəmir.

Məlumdur ki, yüksək döyüş hazırlığı şəxsi heyətdən fiziki dözümlülük tələb edir. Bu baxımdan günün nizam qaydalarına uyğun olaraq, daim şəxsi heyətlə fiziki hazırlıq məşğələləri keçirilir. Qoşunların bütün hərbi hissələrində olduğu kimi, 67987 saylı hərbi hissədə də şəxsi heyət üçün hər bir şəraitin yaradıldığını deyən leytenant P.Rəcəbov bunun ümumilikdə Daxili Qoşunlarda idmanın inkişafına müsbət təsir göstərdiyini bildirdi: "Daxili Qoşunların komandanlığı tərəfindən idmanın inkişafına xüsusi diqqət və qayğı göstərilir. Elə bunun nəticəsidir ki, hərbi qulluqçularımız idmanın müxtəlif növləri üzrə respublikada və xarici ölkələrdə keçirilən beynəlxalq turnirlərdə üçrəngli bayrağımızı yüksəklərdə dalğalandırırlar. Hərbi hissədə möhkəm hərbi intizamı, nümunəvi xidməti ilə fərqlənən yüksək döyüş hazırlığına malik idmançı hərbi qulluqçularımız çoxdur".

O, döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması üçün fiziki hazırlıqla yanaşı, atəş hazırlığı məşğələlərinin də önəmli olduğunu və daim diqqət mərkəzində saxlanıldığını söylədi. Hərbi qulluqçuların özləri də silahların taktiki-texniki xüsusiyyətlərinin öyrənilməsinə xüsusi maraq göstərirlər.

Taqım komandiri ilə söhbət zamanı o da məlum oldu ki, günün nizam qaydalarına əsasən, Daxili Qoşunların taktikası, ictimai-siyasi hazırlıq, sıra hazırlığı və digər məşğələlərə də xüsusi diqqət yetirilir. İctimai-siyasi hazırlıq məşğələlərində müvafiq nizamnamələrin tələbləri ilə yanaşı, Ümummili Lider Heydər Əliyevin həyatı və fəaliyyəti, ölkəmizin rifahı naminə gördüyü işlər, həmçinin respublikamızın sosial-iqtisadi inkişafı, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə qazanılan nailiyyətlər, eyni zamanda şəhid hərbi qulluqçularımızın döyüşlərdə göstərdikləri qəhrəmanlıq nümunələri barədə şəxsi heyətə geniş məlumat verilir.

Hərbi qulluqçuların mənəvi-psixoloji durumunun daim yüksək səviyyədə olması isə həm hissə komandanlığı, həm də zabit heyəti tərəfindən daim nəzarətdə saxlanılır. Leytenant P.Rəcəbov hərbi qulluqçularla tərbiyə işi saatlarının keyfiyyətlə keçirilməsində təlimatçı-psixoloq gizir Samirə Mirzəliyevanın da xidmətlərini xüsusi olaraq vurğuladı. Qeyd etdi ki, hərbi qulluqçularla vaxtaşırı olaraq psixoloji söhbətlər aparılır, test üsulu ilə sorğular keçirilir. Bütün bunlar isə hərbi qulluqçular arasında sağlam mühitin, möhkəm nizam–intizamın formalaşmasında mühüm rol oynayır.

Taqım komandiri fəallar arasında əsgərlər Orxan Osmanovun və Fazil Vəliyevin də adlarını çəkərək, onları bacarıqlı, nümunəvi hərbi qulluqçular kimi xarakterizə etdi.

**leytenant X.Tağıyeva**

# ÖTƏN İLDƏKİ İDMAN NAİLİYYƏTLƏRİMİZ




**2014-cü ildə də Daxili Qoşunların idman nailiyyətləri çox olub. Belə ki, Daxili İşlər Nazirliyinin birinciliyi uğrunda keçirilən yarışlarda qoşunların yığma komandası güllə atıcılığı, sərbəst güləş, sambo, silahsız özünümüdafiə və estafet üzrə 1-ci, güc çoxnövçülüyü, voleybol və xidməti çoxnövçülük üzrə 2-ci, mini futbol üzrə 3-cü yerə layiq görülüb.**

Bu yarışlarda Daxili Qoşunların hərbi qulluqçuları 24 qızıl, 20 gümüş və 18 bürünc medal qazanıblar.

Bunlarla yanaşı, ötən il Daxili Qoşunların birinciliyi uğrunda hərbi hissələr arasında idmanın ağırlıq çəki daşı qaldırma, atıcılıq, çoxnövçülük, estafet, sərbəst güləş, cüdo güləşi, silahsız özünümüdafiə və əlbəyaxa döyüş növləri üzrə yarışlar keçirilib.

İl ərzində Qoşunların hərbi hissələrində 5 nəfər Beynəlxalq dərəcəli idman ustası, 52 nəfər idman ustası, 41 nəfər idman ustalığına namizəd, 173 nəfər I dərəcəli, 155 nəfər II dərəcəli, 198 nəfər III dərəcəli idmançılar, 623 nəfər I, 1168 nəfər II dərəcəli hərbi idman kompleksi nişançıları hazırlanmışdır.

2014-cü ildə idmançılarımız respublika birinciliyində və respublikadan kənar yarışlarda da fəal iştirak edərək yüksək nəticələr əldə ediblər. Bakı şəhərində kiq-boksinq üzrə keçirilən respublika birinciliyində 2 nəfər hərbi qulluqçumuz, İtaliyada keçirilən kiq-boksinq üzrə Dünya çempionatında 2 nəfər hərbi qulluqçumuz, Rusiya və Ukraynada boks üzrə keçirilən beynəlxalq turnirlərdə 2 nəfər hərbi qulluqçumuz, Gürcüstanda keçirilən kontaktlı karate üzrə beynəlxalq turnirdə 5 nəfər hərbi qulluqçumuz 1-ci yeri, Qazaxıstanda güc strukturları arasında əlbəyaxa döyüş növü üzrə keçirilən beynəlxalq turnirdə 1 nəfər hərbi qulluqçumuz, İspaniyada keçirilən güllə atıcılığı üzrə beynəlxalq yarışda isə daha 1 nəfər hərbi qulluqçumuz 2-ci yeri tutublar.

**İnanırıq ki, idmançı hərbi qulluqçularımız bu il də yüksək nəticələr əldə edəcəklər.**

**"Əsgər"**



*Şəhidlərimiz*

# AZ YAŞASA DA, ŞƏRƏFLƏ YAŞADI...

***Avtobus yola düşmək istəyəndə saxladaraq, onu yola salan anasının boynunu bərk-bərk qucaqladı: "Ana sən mənim ən yaxşı, ən qəşəng anamsan...".***

***Məhz ANAya olan hədsiz sevgi onu ANA Vətənin müdafiəsinə səsləyirdi...***

**Daxili Qoşunların Vətən uğrunda şəhidlik zirvəsinə ucalan igid döyüşçülərindən biri də sıravi Abıyev Məhərrəm Bürcəli oğludur.**



ABIYEV MƏHƏRRƏM BÜRCƏLİ OĞLU

Məhərrəm Bürcəli oğlu Abıyev 1973-cü il fevral ayının 5-də respublikamızın cənub bölgəsində, Astara rayonunun Vaqo kəndində (Siyakü kənd inzibati ərazi vahidinin tərkibindədir – A.Ə.) dünyaya göz açıb. Bürcəli kişinin və Tamara ananın halal zəhmət və alın təri ilə böyütdüyü yeddi övladdan (Rahim, Xatirə, Ətrüfə, Xədicə, Fikrət, Məhərrəm və Nüsrət, ) biri və eyni zamanda ailənin altıncı övladı idi Məhərrəm.

1979-cı ildə Vaqo kəndindəki 8 illik orta məktəbin 1-ci sinfinə gedib. Səkkizinci sinfi bitirdikdən sonra Pensər kənd 2 saylı orta məktəbdə təhsilini davam etdirib. Məhərrəm orta məktəbi «əla» və «yaxşı» qiymətlərlə başa vursa da, sənətə böyük önəm verdiyi üçün sənədlərini Astara rayonundakı 139 saylı Texniki peşə məktəbinə verir və bu təhsil ocağını «çilingər» ixtisası üzrə bitirir.

Məhərrəmin həmkəndliləri, dostları və yaxınları indi də onu çalışqan, bacarıqlı, işgüzar bir insan kimi xatırlayır, Vətənimizin şəhid övladı ilə fəxr edirlər.

**Onunla səkkiz il bir sinifdə təhsil almış həmkəndlisi və yaxın dostu Surxay Əzizov şəhid silahdaşımız haqqında fikirlərini fərəh hissi ilə bölüşür:**

*«...Məhərrəm sinfimizdə çox çalışqan və yaxşı oxuyan əlaçı şagirdlərdən idi. Eyni zamanda, təşkilatçılıq və ictimai işlərdə fəal olduğuna görə şagirdlər arasından sinif nümayəndəsi də seçilmişdi. Məktəbdə müəllimlərin, kənddə isə özündən yaşda böyük və kiçiklərin yanında xüsusi rəğbət və hörmət qazanmışdı. Olduqca xeyirxah, dostluqda möhkəm və sədaqətli bir insan idi. Təbii ki, şəhid xalqın, millətin ucalığını, mübarizliyini ifadə edir. Məhərrəm sözün əsl mənasında şəhid adına layiq idi».*

**Məhərrəmə riyaziyyat fənnindən dərs demiş və sinif rəhbəri olmuş Abbas Güləliyev da onun kimi qəhrəman oğullarımızın xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını deyir:**

*«...Məhərrəm olduqca tərbiyəli şagird idi. V-VIII siniflərdə oxuyarkən sinif rəhbəri olmuşam. Elmə marağı yüksək olduğundan, dərs əlaçısı idi. Riyaziyyata marağı çox idi. Yüksək əxlaqi keyfiyyətə malik olmaqla yanaşı, ictimai işlərdə liderlik etməyi bacaran şagird idi. Məktəbdə müxtəlif tədbirlərin hazırlanmasında yaxından iştirak etməsi, böyüklərə hörmət və uşaqlara qarşı daha çox qayğıkeş olması, onu yaşıdlarından fərqləndirən əsas cəhətlərdən biri idi. Məktəbdə müəllimlərin və şagirdlərin arasında xüsusi hörmətə malik olmaqla yanaşı kənd ictimaiyyətinin sevimlisi idi.*



ORTA MƏKTƏB İLLƏRİ

*...Yaxşı yadımdadır. Füzuli rayonunun müdafiəsi uğrunda gedən döyüşlərin birində yaralanmışdı. Qısamüddətli müalicədən sonra 2-3 günlüyə evinə xəstə atasına təsəlli verməyə gələn Məhərrəm, geriyə cəbhə bölgəsinə qayıdarkən Tamara anaya dediyi «Darıxma ana, igid ölər, adı qalar» sözləri hələ də qulaqlarımdan getmir... Sanki şəhid olacağını bilirdi...*

*Bir sözlə, Məhərrəmin şərəfli həyat yolu gələcəyimiz olan yeniyetmə və gənclərimiz üçün əsl nümunədir».*

**Qonşuları Şölə xala isə Məhərrəmi hündürboylu, yaraşıqlı və deyib-gülən bir gənc kimi xatırlayır:** *«Hamıya, istər xeyirdə, istərsə də şərdə böyük köməyi dəyərdi. Bir qonşu kimi çox yaxın olmuşuq. Böyüklərin hörmətini saxlayırdı, hər birimizin işinə yarayan gənc idi...».*

**Şəhid döyüşçünün qardaşı, Qarabağ veteranı Nüsrət Abıyev isə qardaşını Vətən fədaisi kimi dəyərləndirir:**

*«Məhərrəmlə bağlı xatirələr yadıma düşəndə sanki daxili qürur hissi keçirirəm. Qardaşım qorxu bilməz, mərd oğlan idi. Heç nədən çəkinməzdi... Şəhidlərdən söz düşəndə Məhərrəm həmişə deyirdi ki, az yaşasa da, şərəflə yaşadı. O, özünə də şəhid olmağı arzulayırdı...».*



M.Abıyev 1991-ci ildə Astara RHK tərəfindən həqiqi hərbi xidmətə çağırılıb. O, hərbi xidmətini Daxili Qoşunların o zamanlar mühafizə alayı kimi tanınan "N" saylı hərbi hissəsinin *(Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 09.01.1993-cü il tarixdən hərbi hissə Ədliyyə Nazirliyinin Məhkəmə Qərarlarının İcrası Baş İdarəsinin tərkibinə verilib – A.Ə.)* sıravi hərbi qulluqçusu kimi yerinə yetirməyə başlayıb. Məhərrəm bir müddət burada xidmət etdikdən sonra, 1992-ci ilin iyul ayında qoşunların Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissəsinin tərkibində Ağdərə rayonuna - döyüş bölgəsinə ezam olunub. Sıravi M.Abıyev 1992-ci ilin oktyabr ayından 1993-cü ilin fevral ayına qədər Ağdərə rayonunun Çıldıran və digər ətraf kəndlərin müdafiəsi uğrunda gedən döyüşlərdə yaxından iştirak edib. 1993-cü ilin mart ayından etibarən isə, o zamanlar «Ağdam alayı» kimi məhşur olan 67987 saylı hərbi hissəsinin igid döyüşçüsü kimi Vətən torpaqlarının keşiyində dayanıb. 1993-cü ilin iyun ayından Ağdam, noyabr ayından isə Füzuli rayonu ərazisində aparılan hərbi əməliyyatlarda fəal iştirak edərək, əsl döyüşçü kimi fərqlənib. Elə Məhərrəmin son döyüşü də Füzuli rayonunun Böyük Bəhmənli kəndinin müdafiəsi zamanı oldu...



SOLDAN: BÜRCƏLİ KİŞİ, TAMARA ANA VƏ GƏNC MƏHƏRRƏM

**11 dekabr 1992-ci il.** Bu, Məhərrəmin müqəddəs torpaqlarımızın azadlığı uğrunda atıldığı son döyüş günü və şəhidlik zirvəsinə yüksəldiyi tarixdir.

... Böyük Bəhmənli kəndi uğrunda qanlı döyüşlər gedirdi. Bu kəndi ələ keçirməyə can atan düşmən nəyin bahasına olursa olsun, Beyləqan istiqamətində irəliləməyə cəhd göstərirdi. Lakin düşmən hər dəfə döyüşçülərimizin müqavimətinə rast gələrək geri çəkilməyə məcbur olurdu. Qəhrəmancasına vuruşaraq, neçə-neçə erməni yaraqlısını məhv edən Məhərrəm, sonda özü də düşmən gülləsinə tuş gəldi...

Şəhid M.Abıyev Astara rayonu, Pensər kəndindəki «Seyid Camaləddin» qəbiristanlığında dəfn edilib.

**Onun həyat və döyüş yolundan bəhs edən yazılara görkəmli ziyalılarımız Mərasim Hacızadənin Astara şəhidlərindən bəhs edən «Baharı xəzana dönən oğullar» və Tamilla Əliyevanın «Qoy anam ağlamasın» adlı kitablarında rast gəlmək olar.**

Qeyd olunan birinci kitabda «Düşmən zalım oldu» başlıqlı məqalədə Ağdərədə onunla birgə vuruşaraq ağır yaralanmış döyüşçü yoldaşı İlyas İbrahimovun söylədiyi fikirlər olduqca maraqlı və qürurvericidir: *«Məhərrəm həmişə deyərdi ki, İlyas, bu düşmən hiyləgər olduğu qədər də zalımdır. Özünü gözlə, qardaş, son anda həyatından keç, amma onların əlinə keçmə. Bu kəlmələri dönə-dönə deyərdi Məhərrəm. Döyüşdə göstərdiyi qorxmazlığı, cəsarəti, vətənpərvərliyi heç cür unuda bilmirəm...».*

«Qoy anam ağlamasın» adlı kitabda isə Tamara ananın şəhid oğlu barəsindəki (11.01.2009-cu il tarixdə dünyasını dəyişib – A.Ə.) xatirələrindən bəhs olunur:

*«...Cəbhəyə yola düşəndə özüm mindirdim avtobusa. Bir az aralanmışdılar ki, yenidən düşüb mənə sarı gəldi, boynumu bərk-bərk qucaqladı. Dedim ki, nə olub ay Məhərrəm, bir-iki aydan sonra yenə gələcəksən. Dedi ki, bilirəm gələcəyəm, axı sən mənim ən yaxşı, ən qəşəng anamsan. Dedim, çox tərifləmə, tez ol sürücü səni gözləyir. Bircə onu dedi ki, Nüsrətdən muğayat ol (Nüsrət şəhidin qardaşıdır. O da Qarabağ müharibəsinin iştirakçısı olub - A.Ə.). Heç vaxt özünü düşünmürdü. Evimizin, bacı-qardaşının, mənim dərdimi çəkirdi».*

Şəhid döyüşçümüz haqqında müvafiq məlumatlar Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında (http://seferberlik.gov.az/rgminfoall/660.html) da yerləşdirilib.

Məlumat üçün bildirim ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 04.08.1994-cü il tarixli müvafiq qərarı ilə Astara rayon Vaqo kənd tam orta məktəbinə şəhid Məhərrəm Abıyevin adı verilib.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**baş leytenant A.Əhmədov,**
**Mənəvi - psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**

# BİRİNCİLİYİ QORUYUB SAXLAYACAQLARINA SÖZ VERDİ

***"Hər bir komandir tabeliyində olan hərbi qulluqçunun şəxsi-mənəvi keyfiyyətlərinə fərdi olaraq yanaşmalı və onun bacarığına adekvat qiymət verməlidir..."***

**2014-cü ildə xidməti-döyüş fəaliyyətinin nəticələrinə görə 99713 saylı hərbi hissədə qabaqcıllar sırasında qərarlaşan bölmələrdən biri də xüsusi vasitələrin tətbiqi bölməsidir. Uğura aparan yolun başlanğıcında nailiyyətlər əldə etmək üçün hansı üsullardan, metodlardan istifadə etdiklərini öyrənmək məqsədilə bölmə komandiri leytenant Haqverdi Bağırovla söhbət etdik.**

İşinə olduqca ciddi yanaşan komandir istənilən sahədə uğur əldə etmək üçün birinci növbədə məqsədyönlü olmağın vacibliyini qeyd etdi. O bildirdi ki, şəxsi heyətdə nəzəri və praktiki biliklərin artırılması, eləcə də fiziki hazırlığın, dözümlülük keyfiyyətlərinin tələb olunan qaydalara cavab verməsi bir bölmə komandiri kimi xidmətinin əsasıdır: "Hərbi qulluqçular arasında sağlam rəqabətin olması da çox təqdirəlayiq haldır. Məsələn, biz ötən illərin yekunlarına görə, birinci olmuş bölməni özümüzə rəqib seçərək 2014-cü ildə "əlaçı" olmağı qarşımıza məqsəd qoymuşduq və buna da nail olduq".

Öz işinin məsuliyyətini dərindən dərk edən H.Bağırov keçirilən məşğələlərin Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq direktivinə və tədris proqramına əsasən təşkil olunduğunu və bu istiqamətdə əvvəlcədən məşğələ cədvəllərinin tərtib edildiyini vurğuladı: "Məşğələlərin tam keyfiyyətlə keçirilməsinə və mənimsənilməsinə, həmçinin tabeliyimdə olan hərbi qulluqçuların nizam-intizamına, xidməti fəaliyyətinə, qəflətən qarşıya çıxa biləcək hər hansı bir döyüş tapşırığının uğurla yerinə yetirilməsinə ciddi nəzarət edirəm. Günün nizam qaydalarına əsasən, xüsusi-taktiki hazırlıq təlimləri, fiziki hazırlıq, ssenarili və gecə təlimləri, həmçinin təlim-atəş çalışmaları və kütləvi iğtişaşların qarşısının alınması üzrə xüsusi-taktiki təlimlər mütəmadi olaraq vaxtlı-vaxtında keçirilir".

Hərbi qulluqçularda fərdi məsuliyyətin artırılması, vətənə, dövlətə sədaqət hissinin aşılanması ilə yanaşı, həm də onların mənəvi-psixoloji durumunun daim yüksək səviyyədə olması da vacib şərtlərdən biridir. Əsl hərbçi kimi daim öz üzərində çalışan bölmə komandiri H.Bağırov şəxsi heyətin döyüş hazırlığının yüksək səviyyədə saxlanılması ilə yanaşı, həm də onların şəxsi problemlərinə qayğı ilə yanaşdığını dedi. Əlavə etdi ki, hər bir komandir tabeliyində olan hərbi qulluqçunun şəxsi-mənəvi keyfiyyətlərinə fərdi olaraq yanaşmalı və onun bacarığına adekvat qiymət verməlidir. Ancaq belə olan halda uğurlar bir-birini əvəz edə bilər.

Bölük komandiri növbəti illərdə də birinciliyi qoruyub saxlamaq üçün əllərindən gələni əsirgəməyəcəklərinə söz verdi: "Bu gün qazandığımız nailiyyətdə tək mənim yox, tabeliyimdə olan bütün hərbi qulluqçuların böyük zəhməti var. Əldə etdiyimiz uğuru qoruyub saxlayacağımıza inanır, bunun üçün bütün qüvvəmizi səfərbər edəcəyimizə söz verirəm".

**gizir N.Rzayeva**

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi diqqət və qayğı sayəsində Silahlı Qüvvələrimizdə, o cümlədən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında gedən dinamik inkişaf hər keçən gün diqqəti daha çox cəlb edir.**

**Daxili Qoşunların sürətli inkişafı, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaradılan hərtərəfli şərait hər bir Azərbaycan vətəndaşını sevindirir. Hər dəfə hərbi hissələrimizdə mövcud şəraitlə tanış olan qonaqlar bununla qürur duyduqlarını iftixar hissi ilə qeyd edirlər.**

# MƏKTƏBLİLƏR DAXİLİ QOŞUNLARDA

***Hərbi vətənpərvərlik layihələrinə dəstək olduğuna görə Daxili Qoşunlar Komandanlığına müəllim kollektivi adından minnətdarlıq bildirilib***

Yanvarın 12-də paytaxtın Sabunçu rayonunda yerləşən 188 saylı tam orta məktəbin müəllimi Əli Məmmədovun rəhbərliyi ilə, qırx nəfər şagirdin tanışlıq məqsədi ilə qoşunların 67987 saylı hərbi hissəsinə səfəri zamanı bu hiss özünü bir daha göstərdi. Tərbiyə bölməsində təlimatçı baş leytenant Bəxtiyar Əliyev qonaqlara ilk olaraq hərbi hissədəki Daxili Qoşunların Muzeyini təqdim edərək, qoşunların yaranma tarixi, Qarabağ savaşında keçdiyi döyüş yolu, xidməti fəaliyyəti, vəzifələri, beynəlxalq hərbi əməkdaşlıq əlaqələri, həmçinin Ümummilli Lider Heydər Əliyevin, ölkə başçısı cənab İlham Əliyevin Daxili Qoşunların inkişafına göstərdiyi diqqət və qayğı barədə geniş məlumat verdi. Qeyd olundu ki, muzey 2 böyük, 4 kiçik zaldan, muzey fondundan və muzey rəhbərinin iş otağından ibarətdir. Muzeydə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Daxili Qoşunların ilk döyüşə başladığı gün 12 mart tarixinin onun yaranma günü kimi qeyd olunması barədə 9 mart 1995-ci il tarixli fərmanı, «Daxili Qoşunların statusu haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş Daxili Qoşunların vəzifələri əks olunmuş lövhələr, qaya parçaları üzərində Qoşunların şəxsi heyətinin döyüş əməliyyatlarında istifadə etdiyi silahlar, 1992-ci il tarixdə Daxili Qoşunların canlı qüvvələrinin təmas xəttindəki rayonların müdafiəsi uğrunda döyüşlərə cəlb olunması barədə Daxili Qoşunların Komandanının əmrləri, Azərbaycan Respublikasının Milli Qəhrəmanlarının şəkilləri, şəxsi əmlakları və döyüşlər zamanı istifadə etdikləri ləvazimatlar əks olunub.

Daha sonra qonaqlar hərbi hissənin ərazisini gəzərək, qoşunların istifadəsində olan müasir silah və texnikalara, xidməti itlərin və atların saxlanıldığı məntəqəyə baxmış, onların təlimini izləyiblər. Məktəblilər həmçinin əsgər yeməkxanasını, kazarmasını, tibb məntəqəsini, və idman şəhərciyini gəzərək, hərbi qulluqçular üçün yaradılan hərtərəfli şəraitlə tanış olublar. Daxili Qoşunların müvafiq xidmət sahələri ilə tanışlıq şagirdlərdə böyük təəssürat yaradıb. Onlar ötən illərdə Daxili Qoşunların əldə etdiyi nailiyyətlər, həyata keçirdiyi xüsusi əməliyyatlar, xüsusi-taktiki təlimlər haqda verilən məlumatları maraqla dinləyiblər.

Əli müəllim Daxili Qoşunların Komandanlığına gələcəyimiz olan yeniyetmə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində həyata keçirilən layihələrə dəstək olduğuna görə məktəbin müəllim kollektivi və şagirdləri adından dərin minnətdarlığını bildirib.

**baş leytenant A.Əhmədov**